**Azərbaycan Respublikası vətəndaşları tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilən və ya onların ünvanına göndərilən gömrük rüsumu tutulmalı olan malların siyahısının təsdiq edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Ticarətin liberallaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 13 avqust tarixli 138 nömrəli Fərmanına müvafiq olaraq qərara alıram:

1. Azərbaycan Respublikası vətəndaşları tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilən və ya onların ünvanına göndərilən gömrük rüsumu tutulmalı olan malların siyahısı təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, 10 gün müddətində bu siyahıya daxil olan mallar üzrə gömrük rüsumlarının miqdarlarını müəyyən etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY**

**Bakı şəhəri, 15 sentyabr 1992-ci il**
**№ 133**

Azərbaycan Respublikası Prezidentinin
1992-ci il 15 sentyabr 133 nömrəli
sərəncamı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası vətəndaşları tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilən və ya onların ünvanına göndərilən gömrük rüsumu tutulmalı olan malların**

**S İ Y A H I S I**

**Ərzaq malları**

Spirtli içkilər
Pivə
Tütün məmulatı

**Qeyri-ərzaq malları**

1. Dəri-xəz və kürk məmulatları
2. Təbii ipək parçaları
3. Xalça və xalça məmulatı
4. Məişət sərinkeşləri
5. Məişət soyuducuları
6. Ventilyatorlar
7. Sintetik yuyucu maddələri